

İCBARİ TİBBİ SIĞORTA

# SÜD VƏZİ XƏRÇƏNGİNİN DİAQNOSTİKASI İCBARİ TİBBİ SIĞORTA İLƏ QARŞILANIR

Dünyada hər 8 qadından biri bu xəstəlikdən əziyyət çəkir. Dövlət Statistika Komitəsinin 2022-ci il üzrə məlumatlarına əsasən Azərbaycanda süd vəzi xərçəngi qadınlar arasında yayılmasına görə xərçəng xəstəlikləri arasında birinci yerdədir. Süd vəzi xərçəngi ilə mübarizənin əsas yolu erkən diaqnostikadır. **İcbari tibbi sığorta hesabına süd vəzi xərçənginin diaqnostikası vətəndaşlara ödənişsiz şəkildə təqdim olunur**. Müxtəlif səbəbli müraciətlər əsasında icbari tibbi sığorta hesabına əhaliyə göstərilən süd vəzinin diaqnostik müayinəsi istiqamətində 2024-cü ilin yanvar-sentyabr ayları ərzində **22 294** sayda xidmət göstərilib.

Süd vəzi xərçənginin inkişaf etməsinə təsir edə bilən bir çox risk faktorları var. Məsələn, irsi və yaş faktorları, hormonal dəyişikliklər, 12 yaşdan tez başlayan mensturasiya, gec yaşda menopauza (55 yaşdan sonra), qadının ilk uşağını dünyaya gətirdiyi yaş və hamiləlik sayı, ana südü ilə qidalandırmamaq, siqaret və tütün məhsullarından istifadə, spirtli içkilərin qəbulu, artıq çəki və piylənmə, fiziki aktivliyin aşağı olması və s.

**Xəstəliyin əsas simptomlarına** süd vəzisində və ya qoltuqaltı nahiyədə bərk və nahamar törəmənin əmələ gəlməsi, gilədən ifrazat, gilənin içəriyə doğru batması, süd vəzisinin ölçülərində böyümə və ya kiçilmə, yerli hərarət və qızartı, şişkinlik, dərinin portağal qabığına bənzər görünüş alması və s. aiddir. **Bu əlamətlərdən birini və ya bir neçəsini aşkarladıqda diaqnozun dəqiqləşdirilməsi üçün mütləq həkimə müraciət etmək lazımdır**. Lakin bir çox hallarda xəstəlik erkən mərhələdə gizli şəkildə, yəni simptomsuz gedə bilər. Misal üçün, törəmənin ölçüsü kiçik olduğu və ağrı olmadığı halda şəxslərin xəstəliyi aşkarlamağı mümkün olmur və erkən diaqnoz qoyma şansı azalır. Bu səbəbdən profilaktik müayinələr, skrininq olduqca əhəmiyyətlidir. Ümumiyyətlə, 20 yaşdan yuxarı qadınlara iki ildən bir ixtisaslı həkim tərəfindən müayinə olunmaq, 40 yaşdan yuxarı qadınlara isə ildə bir dəfə mammoqrafiya müayinəsindən keçmək məsləhət görülür. Süd vəzi xərçənginin skrininqi hər bir qadının özünü müayinəsi ilə başlamalıdır. Beləki, reproduktiv yaşda, 20 yaş üstü qadınlara hər menstrual siklin 5-10-cu günləri aralığında, menopauza və sonrakı dövrdə olan qadınlara isə hər ayın eyni günündə güzgü önündə **vizual və əl ilə özünü müayinə etməsi tövsiyə olunur**.

**Süd vəzilərinin özünü müayinə üsulları aşağıdakılardır:**

### Üsul 1

Güzgü qarşısında əllər beldə, ayaqüstə, yaxud oturaraq aşağıdakılara fikir verin:

- Süd vəzilərinizin formasına, ölçüsünə, bir-birinə oxşarlığına, dartılmalarına
- Süd vəzilərinizi əliniz ilə yuxarı qaldırıb, onların eyni səviyyədə olmasına
- Əllərinizi başınızın üstünə qaldıraraq, süd vəzilərinizdə və qoltuqaltı nahiyənizdə hər hansı dəyişikliklərin olub-olmamasına

### Üsul 2

Döşəmə üzərində arxası üstə uzanın. Bu zaman süd vəziniz yayılır və dəyişikliklər asanlıqla hiss edilir. Şəhadət, orta və adsız barmaqlarınızın içəri səthindən istifadə edərək qoltuqaltınızdan başlayaraq, eyni nöqtədən dairəvi hərəkətlər ilə aşağı xətt üzrə yuxarı qalxın. Paralel xətlər üzrə dairəvi hərəkətlər edərək davam edin. Barmaqlarınızı eyni nöqtədə hərəkət etdirərək 3 fərqli təzyiqlə basın.

### Üsul 3

Hamamda süd vəzinizi və barmaqlarınızı sabunlayın, tələsmədən barmaqlarınızı qoltuqaltı nahiyənizdən sürüşdürərək süd vəzinizi yoxlayın.

**Hər qadın süd vəzilərində baş verən dəyişikliklərə diqqət etməli və hansısa dəyişiklik olduqda diaqnozun dəqiqləşdirilməsi üçün vaxtında həkimə müraciət etməlidir.**

İcbari tibbi sığorta hesabına qarşılanan müayinələrə süd vəzi xərçənginin diaqnostikasında "qızıl standart" sayılan **mammoqrafiya müayinəsi, ultrasəs müayinə (USM), Maqnit Rezonans Tomoqrafiya (MRT), məmənin duktoqrafik müayinəsi, biopsiya və digər laborator testlər** aiddir. Biopsiya süd vəzi xərçənginin diaqnostikasında yekun və qərarverici metoddur.

Vətəndaşlar Xidmətlər Zərfi ilə təminata alınmış sözügedən müayinələrdən tibbi göstərişə əsasən və ixtisaslı həkim təyinatı ilə yararlana bilərlər. İcbari tibbi sığorta ilə qarşılanan süd vəzi xərçənginin diaqnostikası TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri və Səhiyyə Nazirliyinin tabeliyindəki müvafiq elmi-tədqiqat institutlarında həyata keçirilir.

**Unutmayın, erkən diaqnostika həyat qurtarır!**